## DÜŞMƏN TAPDAĞINDA QALAN YURD YERİ

Qara daşı qar saxlamaz,
Əkdin günahlar göyərir.
Bu yurd nəfsin qurbanıdı
Göyündə ahlar göyərir.

Fələyin əlindən düşüb -
Qırıqlanmış cam kimidi.
Bu yurd mənim gözlərimdə
Ümidsiz anam kimidi.

Tövbə daşı olmadı ki,
Ətəyimə yığım gedim.
Qəbir-qəbir içimdədi,
Qapısı yox, çıxım gedim.

## DÜNYANIN OYUNLARI

Qara daş doğardı mənim yerimə
Bir azca insaflı olsaydı anam.
Nə gerçək dünyanı sevdirə bildi,
Nə yalan danışdı hərdən aldanam.

Ağladım - bir əlvan oyuncaq aldı,
Al-əlvan oyuncaq bildim dünyanı.
"Qaradan ayrı rəng yoxdu" dedilər,
Yaş kimi gözümdən sildim dünyanı.

Gözümə ağ salıb qəmi bəlkə də,
Qapqara görünür şux boyaları.
O zaman uşaqdım - təsəllim idi,
İndisə çatlayır başımda bir-bir
Dünyanın oyunu, oyuncaqları.

## GÖRÜM DÖZÜRSƏNMİ

Mən səni unudub hər gün bir azca
Düşmüsən gözümdən yaş kimi, yeri.
Adını heç yerdə çəkməmişəm də,
Deyəm ki, çağırdım - qayıtdın geri.

Baş qoyub ürəyim adının üstə,
Alıb dərdlərimdən ötürməz məni.
Baxarsan yollara əli qaşında,
Heç biri yanına gətirməz məni.

Başımı qaldırıb göyə baxmıram,
Naçaram, dünyadan əl üzən kimi.
Sən də öldürdüyün sevgim kimisən
Ağlama, döz indi, mən dözən kimi.

* * *

Payız havasıdır başdan-ayağa,
Gündə neçə dəfə dəyişir bu qız.
Yetənə yetəcək, yetmədiyinin
Dalınca daş atıb döyüşür bu qız.

Yer ilə əlləşir - "dur" demək olmur,
Göydə ulduzlarla savaşır bu qız.
Yüz dəfə güzgüdə özündən küsür,
Yüz yol da özüylə barışır bu qız.

Subaylıq ardınca büküb boynunu,
Sevgidən söz açmaq ar gəlir ona.
Heç kimi bəyənmir, hərdən yanılıb
Gizlicə boylanır qonşu eyvana.

Deyən saqqızını oğurlayıblar -
Bir sevda qəlbinə hopub, durulub.
Siz Allah, xətrinə dəyməyin onun,
Bu qızda günah yox, bu qız vurulub.

## İZN VER

Hər axşam adını gözümə sıxdım,
Gecənin üzünə şamı tutan tək.
Sən adda ağrıma dözdüm, amma ki,
Unuda bilmədim sən unudan tək.

Bu dərdi fərqlicə yaşarıq daha,
Bitib aramızda Çin səddi durub.
Sənin gözlərində günəş doğanda,
Mənim gözlərimə çökəcək qürub.

Bütün aynalara düşmən kimiyəm -
Sönük yanağımda barmaq izin var.
Səni gözləməkdən yoruldum daha,
Səni unutmağa mənə izin ver.

## DAHA GECDİ

Gəlmə bu yerlərə, a dərdin alım,
Güdükçü unayar - qazdan ayıqdır.
Fələyin başına uçsun tifaqı,
Nə bilim, saydığın necə sayıbdı.

Yazıldı qismətim bir özgə ada,
Dönmüşəm səninçün yadlardan yada.
Gözlərin yaşıyla yuyulmaz qada,
Keçib ağlamaqdan, gözün hayıfdı.

Bəxtin qüzeyinə çətin gün düşə,
Neyləyə bilərsən belə gərdişə,
Səndə günah yoxdu, elə həmişə
Mən qəmdən qaçanda, dərd arayıbdı.

Gözügötürməzin gözü kəmənddi,
Gələrdim - ürəyim bir himə bənddi.
Neynim ki, xaraba balaca kənddi,
Min dastan qoşarlar, eldən ayıbdı.

## AYAĞA GƏLMƏZ

Çiçəkmi qısqanıb, gülmü incidib
Yar qədəm götürüb bu bağa gəlməz,
Gözümün selindən çaylar çağladı
Nəşəli bülbüldü - bu çağa gəlməz.

İzinə iz qoyub öldüm gəzincə,
Ürək qubarladı dərdə dözüncə,
Ömürdən usanıb, candan bezincə
Axtarıb-aradım, sorağa gəlməz.

Dərdimi yaxına-uzağa dedim,
Başımı yolunda sadağa dedim,
Bir gün gələsidi bu ağa dedim
Çox da ki, deyirlər ayağa gəlməz.

## SƏNİN ACIĞINA

Gördünmü fələyi, görünməz əllə
Necə ayağıma gətirdi səni?
Ovcumda bərk sıxıb əzizlədiyim
Mərcandın, sürüşdün, itirdim səni.

Mənim bu itiyim kimə yaradı -
Saplayıb boynundan asdımı görən?
Haçansa itirib o da mənim tək
Ömür yollarında azdımı görən?!

Sənin acığına sevəcəm, dedim
Ox olub sinəmi deşdi sözlərim.
Boyanıb həsrətin payız rənginə
Yarpaqtək yerlərə düşdü sözlərim.

## BU PAYIZ

*Dekabrın şəkli*

Dəlir qulağını yanvarın səsi,
Düşüb yarpaq-yarpaq itir bu payız.
Geyib həsrətimin sarı donunu,
Gözümün önündən ötür bu payız.

Yollara dikilib yorğun gözləri,
Əlimdən su kimi axıb gedəcək.
Nə vaxtdı kəsdirib qış qapısını,
Bu gün-sabahlıqdı, çıxıb gedəcək.

Bu payız üz görür soyuq, buz kimi,
İçində buz tutub qəm izi çoxdan.
Özümə oxşayır bu payız bir az,
Mən də gözləyirəm kimisə çoxdan.

## ACINDAN KİM ÖLÜB

Kirpiyimi sıxıram,
Qan-qadam yaşnan çıxır.
Əllərim neynəsin ki,
Ruzusu daşdan çıxır.

Ümid göylə əlləşir,
Tabaq üzə dirəşir,
Canım ocaqda bişir,
Tüstüsü başdan çıxır.

Yuxum dara çəkilir,
Dan gözümdə sökülür,
Adamlar elə bilir,
Günəş bu başdan çıxır.

Bu dərd ilə gülən yox,
Kim nə çəkir bilən yox,
Acından ki, ölən yox, -
Hamısı qışdan çıxır.

## ÜRƏYİMİ VERİM

Üzüm yoxdu ərk eləyib yox deyəm,
Dilim yansın, günahkaram özüm mən.
İcazə ver "ağam" deyib qulun tək
Dizin-dizin arxan ilə gəzim mən.

Bu sevgidə açılmayan düyün var,
Ah çəkməyə başım üstdə göyüm var,
Qoy çiynimə ağır-yüngül nəyin var,
Məndən ötrü dözdüyünə dözüm mən.

Gedirsənmi yoxsa belə, ay aman,
Nədən düşdü aramıza çən-duman?
Ürəyimi istəmişdin bir zaman,
Gec də olsa qoy sinəmdən üzüm mən.

## ACI SÖZ

Qapım dost qapısı, odam el evi,
Niyyətin bəd isə qapımı döymə.
Bir qarış yol gedir dildən ürəyə,
Dilinə sahib ol, ürəyə dəymə.

Ömür yollarında darılma, çaşma,
Bu yolda irəli-geri var, qardaş.
Demirəm kilid vur dilinə, dinmə
Sözü də deməyin yeri var, qardaş.

Getməz söz yarası yüz məlhəm ola,
Sözünə sığal çək qanmazı qandır.
Dünyanın özü də sözdən yaranıb,
Sözlə hər könüldə bir çıraq yandır.

Nəyimiz qalacaq addan savayı? -
Ağayla nökərin sonu ki birdi.
Ürəyim bir haqsız sözdən qırılıb,
O kəlmə yıxılıb öldüyüm yerdi.

## AYRILA BİLMƏZSƏN

Gah ipək kimisən, gah da tündməcaz
Bu dəli halına ağlayım, gülüm?
Daşlara, quşlara dil öyrədirəm
Mən sənin dilini haradan bilim?

Bir qala tikmisən sədaqətindən
Heyf ki, zalımsan mənəmliyinlə.
Dağıdıb sevdalı könül mülkümü
İndi barışmırsan elədiyinlə.

Məni ayrılıqla qorxutma hərdən,
Buna inanmıram sən ha desən də.
Çılğınsan, ötkəmsən, namərd deyilsən
Ayrıla bilməzsən lap istəsən də.

## SEVGİ AĞISI

Sən gedə bilməzsən elə beləcə,
Əyləyib başını qataram sənin.
Gərək sevgimizi elə bu axşam
Öldürüb günaha batıram səni.

Bu günah yaşatmaz səni adamtək,
Min dəfə ölərsən azı ölüncə.
Göyləri səslərsən hayına gəlməz,
Bezərsən Allaha asi olunca.

Sənə deyiləsi sözüm çox idi,
Desəm ürəyinə toxunar ancaq.
Məzarı ürəkdə olan sevginin,
Ağısı ürəkdə oxunar ancaq.

## BİR DİVANƏ VAR İDİ

Mən sahib çıxmadım bu baş-bədənə,
Cismimi talayıb illər apardı.
Kiminsə yadına düşsəm bir zaman
Deyəcək belə bir divanə vardı.

Saçları pırtlaşıq, ruhu dağınıq,
Əlləri göylərdən, yerdən üzülmüş.
Dünyaya arzusuz, könülsüz gəlib
Həyatda bir dəfə - öləndə gülmüş.

Başına dar gələn bu gen dünyada
İçinə sığınıb batdı günaha.
Cənnət arzusunu sıxıb gözünə
Bir ölüm aradı ömürdən baha.

## ÖZÜMDƏN QAÇIRAM

Mən özümdən qaçıram,
Dirəndiyim yer - özüm.
Ölüm də tapmır məni,
O qədər pisdir üzüm.

Xəzan vurmuş bir bağam,
Dünya görmüş uşağam,
Mən Şeytan olacağam
Dil açıb dinsə dözüm.

Kitab tək yazılmışam,
Əyilməyib sınmışam,
Havadan asılmışam,
Mənə Yer verin gəzim.



Rəfiqə ŞƏMS